# Olimpiya dünyası

www.olimpnews.az
www.olimpiyadunyasi.az

*Azərbaycan Milli Olimpiya Komitəsinin qəzeti* — *№51 (1321), 22 - 24 avqust 2017-ci il* — *Qəzet 2001-ci ildən çıxır.*





## Cüdoçularımız Universiada yarışlarında uğurla mübarizə aparırlar

Avqustun 19-da Tayvanın paytaxtı Taypey şəhərində Tələbələrin XXIX Ümumdünya Yay Universiadası start götürüb. Universiada çərçivəsində keçirilən cüdo yarışları milli komandamız üçün uğurlu olub. Ölkəmizi 100 kq çəki dərəcəsində təmsil edən Zelim Kotsoyev bütün rəqiblərinə qalib gələrək yarışın qalibi adına layiq görülüb. Cüdoçumuz müvafiq olaraq Almaniya, Latviya, Bosniya-Herseqovina, Rusiya və Yaponiya idmançılarını mübarizədən kənarlaşdıraraq qızıl medal qazanıb.

Taypeydə Azərbaycan cüdoçusunun şərəfinə dövlət himnimiz səsləndirilib, üçrəngli bayrağımız qaldırılıb.

Cüdo yarışlarının ikinci günündə milli komandamız aktivinə daha bir medal yazdırıb. Ölkəmizi 90 kq çəki dərəcəsində təmsil edən Firudin Dadaşov yarışda universiadanın bürünc medalına layiq görülüb. Yarışlara 1/16 final mərhələsindən başlayan cüdoçumuz müvafiq olaraq Kolumbiya və İtaliya idmançılarını mübarizədən kənarlaşdırsa da, 1/4 finalda Yaponiya təmsilçisi ilə görüşdə məğlub olub. Bürünc medal uğrunda qarşılaşmada idmançımız Çexiya, Latviya və Qazaxıstan cüdoçularına qalib gələrək üçüncü yeri tutub.

## Qadın batutçularımız Minskdə ikinci yeri tutublar

Ölkənin batut gimnastikası üzrə yığma komandasının üzvləri Minskdə keçirilən beynəlxalq turnirdə iştirak ediblər. Azərbaycanı təmsil edən qadın cütlüyümüz Svetlana Makştaryova və Veronika Zemlyanaya sinxron proqramlarını dəqiqliklə yerinə yetirərək, hakimlərdən yüksək xal almağı bacarıblar. Qızlarımız yalnız Belarus komandasından geri qalaraq fəxri kürsünün ikinci pilləsində yer alıblar. Təmsilçilərimiz təəssüf ki, fərdi proqramda final mərhələsinə adlaya bilməyiblər.

Sinxron proqramda çıxış edən Oleq Piunov və İlya Qrişunindən ibarət kişi cütlüyü final mərhələsinə adlamağı bacarsalar da, yekun mərhələdə hərəkətlərdə səhvə yol verdikləri üçün dördüncü yerlə kifayətlənməli olublar. Fərdi hərəkətlərdə isə İlya və Oleq ilə yanaşı, millimizin digər üzvü Ruslan Ağamirov da öz gücünü sınayıb. İdmançılarımızdan yalnız İlya final mərhələsində çıxış edərək 7-ci yeri tutub. Oleq və Ruslan isə müvafiq olaraq 13-cü və 22-ci sırada yer alıblar.




## Kəmaləddin Heydərov Dünya Taekvondo Federasiyasının vitse-prezidenti təyin edilib

Azərbaycan Taekvondo Federasiyasının (ATF) prezidenti Kəmaləddin Heydərov növbəti dəfə Dünya Taekvondo Federasiyasının (DTF) vitse-prezidenti təyin edilib.

O, bu etimada qurumun prezidenti Çunqvon Ço tərəfindən layiq görülüb. DTF rəhbər strukturuna seçkiləri müəyyən edilmiş yeni qaydalara əsasən aparır. Belə ki, qitələr üzrə seçilmiş taekvondo birliklərinin rəhbərləri birbaşa olaraq,



Dünya Taekvondo Federasiyasının vitse-prezidenti vəzifəsinə təyinat alır. Digər iki vitse-prezident isə qurumun prezidenti tərəfindən seçilir.




## Azərbaycanlı atlet Ramil Quliyev daha bir qızıl medal qazanıb

Azərbaycanlı atlet Ramil Quliyev növbəti uğurunu qazanıb.

Türkiyəni təmsil edən atletimiz dünya çempionluğunun ardınca Böyük Britaniyanın Birmingem şəhərində keçirilən "Brilliant Liqa" yarışında da qızıl medal qazanıb.

Sprinterimiz 200 metr məsafəyə qaçışda finiş xəttinə 20,17 saniyəyə çatıb. O, ən yaxın izləyicisini 0,09 saniyə qabaqlayıb.

## Güləş üzrə dünya çempionatına start verilib

Avqustun 21-də Fransanın paytaxtı Paris şəhərində güləş üzrə dünya çempionatına start verilib. Yarışda ölkəmizi 22 idmançı təmsil edir. Proqrama əsasən, ilk iki yarış günündə yunan-Roma güləşçiləri xalça üzərinə çıxıblar.

Ölkəmizi 71 kq çəki dərəcəsində təmsil edən Rəsul Çunayev ilk görüşünü qələbə ilə başa vurub. Güləşçimiz Honduras təmsilçisi Jefrin Benito Mejia Sambulanı məğlub edərək növbəti mərhələyə adlayıb. Milli komandamızın üzvü 1/16 finalda almaniyalı Frank Stablerə 1:2 hesabı ilə uduzub. İslam Abbasov (85 kq) isə ilk iki görüşünü uğurla başa vuraraq 1/4 finala adlayıb.

Qeyd edək ki, avqustun 23-24-də qadın, 25-26-da isə sərbəst güləşçilər arasında qaliblər müəyyənləşəcək.


*Bədii gimnastlar arasında ölkənin ən güclüləri bəlli olub* Səh. 2

•

*Fazil Məmmədov:*
"Tennisçilərimiz Azərbaycanın idman tarixində yeni bir səhifə açırlar" Səh. 3

•

Həvəskarlar üzgüçülük turnirində yarışıblar Səh. 2

•

Azərbaycan Qılıncoynatma Federasiyasının hesabat-seçki konfransı keçirilib Səh. 2

•

Boksçularla görüş keçirilib Səh. 3

•

Azərbaycan çempionatına yekun vurulub Səh. 3


## *Olimpizm*

### *Olimpiya oyunlarının medalçısı komadan ayılıb*

Afina-2004 Yay Olimpiya Oyunlarının bürünc mükafatçısı Anna Holmund 5 aydır ki, düşmüş olduğu koma vəziyyətindən ayılıb. "Local" nəşrinin yazdığına görə, 29 yaşlı idmançının artıq huşu özünə qayıdıb və ünsiyyət yarada bilir.

Məlumat üçün bildirək ki, İsveç idmançısı təlim-məşq toplanışlarında ağır kəllə-beyin zədəsi alıb. İdmançı yaxın günlərdə bərpa prosesi keçmək üçün doğma Sundsvall şəhərinə yola düşəcək.

### *Keçmiş dünya çempionu dopinqdə "ilişdi"*

MMA üzrə keçmiş dünya çempionu Junior Dus Santuş yarışlara buraxılmayacaq. İdmançının qanında dopinq aşkar olunub. Onun təmsilçisi Klaudia Quedeş bildirib ki, idmançıdan götürülmüş qan analizi müsbət nəticələnib. "Əslində Dus Santuş qadağan olunmuş maddələrdən istifadə etməyib. O, dopinqi gizlədən hidroxlorotiazid maddəsindən yararlanıb. Həmin maddə orqanizmdə olan dopinqin izlərini itirir. Biz onun B analizinin açılmasını tələb etdik. Nəticə eyni oldu. Buna görə də Junior diskvalifikasiya edildi", - deyə Klaudia Quedeş məlumat verib.




## Komandamız Macarıstanda geniş heyətlə təmsil olunacaq

Avqustun 28-də Macarıstanın paytaxtı Budapeştdə cüdo üzrə dünya çempionatı start götürəcək. Dünya çempionatında 134 ölkədən 794 cüdoçu (482 kişi, 312 qadın) mübarizə aparacaq.

Azərbaycan milli komandası bu mötəbər yarışda 17 cüdoçu ilə təmsil olunacaq. Kişilərin yarışında Orxan Səfərov (60 kq), Nicat Şıxəlizadə, (66 kq), Rüstəm Orucov, Hidayət Heydərov (hər ikisi 73 kq), Elmar Qasımov və Elxan Məmmədov (hər ikisi 100 kq) və digər təcrübəli idmançılarımız da iştirak edəcəklər. Qadınların mübarizəsində isə Leyla Əliyeva, Erdenabat Bazarraqça (hər iksi 48 kq), Nəzakət Əzizova, Purevsuren Buyankişinq (hər ikisi 52 kq), Səkinə Zayırova və digər cüdoçularımız təmsil olunacaqlar.

Dünya çempionatına sentyabrın 3-də yekun vurulacaq.



# Bədii gimnastlar arasında ölkənin ən güclüləri bəlli olub

***Avqustun 18-də bədii gimnastika üzrə 24-cü açıq Azərbaycan çempionatı keçirilib. Milli Gimnastika Arenasının köməkçi zalında təşkil edilən yarışlarda gənclər və böyüklər yaş kateqoriyasında 25 gimnast qüvvəsini sınayıb. Çoxnövçülükdə gənclər arasında ən yaxşı nəticəni Bakı Gimnastika Məktəbinin yetirməsi Dərya Farşbafşəhriyari göstərib. O, hakimlərdən 49.250 xal alaraq ölkə çempionu adını qazanıb. 2-ci və 3-cü yerləri müvafiq olaraq "Ocaq Sport" İdman Klubunun təmsilçiləri Nərminə Səmədova (48.050) və Arzu Cəlilova (47.700) tutublar.***



Böyüklər yaş kateqoriyasında çıxış edən gimnastlar arasında yarış gərgin idman mübarizəsi şəraitində keçib. Qızlarımız xalça üzərində hakimlərin rəğbətini qazanmaq üçün qüsursuz çıxışlar nümayiş etdirməyə çalışıblar. Yekun nəticədə Azərbaycan çempionu adını ölkənin gimnastika yığmasının perspektivli gimnastlarından olan və "Ocaq Sport" İdman Klubunun yetirməsi Zöhrə Ağamirova (64.900) qazanıb. Fəxri kürsünün ikinci pilləsində adıçəkilən klubun digər təmsilçisi Veronika Hudis (47.500 xal) yer alıb.

Məlumat üçün bildirək ki, açıq Azərbaycan çempionatında yerli gimnastlarımızla yanaşı, hazırda ölkəmizdə təlim-məşq toplanışı keçən Yeni Zelandiya təmsilçiləri də iştirak ediblər. Onlardan Tanaka Probert Ayanın da icra etdiyi maraqlı kompozisiyalar hakimlərin xoşuna gəlib. O, 45.600 xalla 3-cü yerdə qərarlaşıb.

### *"Son illər Azərbaycanın regionlarında istedadlı gimnastlar yetişir"*

Bu sözləri bədii gimnastika üzrə Azərbaycan yığmasının baş məşqçisi Mariana



Vasileva bədii gimnastika üzrə keçirilən Azərbaycan çempionatında deyib. Baş məşqçi bu il Azərbaycanın açıq çempionatında ölkə regionlarından çoxlu sayda gimnast iştirak etdiyini bildirib. Onun dediklərinə görə, əvvəl bu yarışlarda yalnız Gəncə klublarından olan gimnastlar iştirak edirdisə, indi Kürdəmir rayonunun və Zirə idman klublarının idmançılarını da görmək mümkündür: "Regionlarda gimnastikanın inkişaf etməsi yaxşı haldır. Biz hazırda yığma komandada yeni nəsil gimnastları görürük. Komandamız yeni mövsümə hazırlaşır. Yaxın zamanlarda dünya çempionatı keçiriləcək. Bu yarışda ölkəmizi Zöhrə Ağamirova və Ayşən Bayramova təmsil edəcəklər".

Mariana Vasileva onu da qeyd edib ki, bir sıra yeniyetmə və gənc gimnastlar artıq böyüklərin kateqoriyasında qüvvələrini sınayırlar. Onun sözlərinə görə, bu idmançılardan Yelizaveta Luzan, Darya Farşbafşahriyari, Nərminə Səmədova və Arzu Cəlilova 2018-ci ildə keçiriləcək Avropa çempionatında iştirak etmək üçün hazırlaşacaqlar.

***Səadət Hakıyeva***

# Azərbaycan Qılıncoynatma Federasiyasının hesabat-seçki konfransı keçirilib

***Avqustun 17-də Azərbaycan Qılıncoynatma Federasiyasının (AQF) növbəti hesabat-seçki konfransı keçirilib. Konfransda Federasiya rəhbərliyinin hesabatı dinlənilib, ötən dövrdə görülən işlər, qurumda baş vermiş idman və ictimai xarakterli hadisələr geniş müzakirə olunub.***

Konfransda AQF-in rəhbər orqanlarına seçkilər keçirilib, icraiyyə komitəsinin yeni tərkibi təsdiqlənib. Federasiyanın prezidenti Nazim İbrahimov konfrans iştirakçılarının yekdil səsi ilə yenidən bu vəzifəyə seçilib.

Sonra federasiyanın vitse-prezidenti, baş katibi və nəzarət-təftiş komissiyasının üzvləri seçilib. Ramin Məmmədov federasiyanın vitse-prezidenti, Asəf Məlikov baş katibi, İslam Rəhimov, Elxan Əhmədov, Sudeyif Quliyev isə nəzarət-təftiş komissiyasının üzvləri seçiliblər.

Nazim İbrahimov konfransda çıxış edərək ötən dövrdə Azərbaycanda idmanın inkişafından, bu sahədə görülən işlərdən danışıb. O, Azərbaycan Prezidenti İlham Əliyevin ölkəmizdə idmana göstərdiyi yüksək diqqət və qayğı nəticəsində qazanılan nailiyyətlərin ildən-ilə daha da artdığını bildirib.

Federasiya rəhbəri yeni seçilmiş heyətə Azərbaycan Qılıncoynatma Federasiyasının qarşıdakı dövr üçün fəaliyyət planının, idmanın bu növü üzrə milli komandaların yarış və təlim-məşq prosesinin hazırlanması, Beynəlxalq Qılıncoynatma Federasiyası ilə əməkdaşlığın genişləndirilməsi ilə bağlı tapşırıqlar verib.

Hesabat-seçki konfransında Gənclər və İdman Nazirliyinin, Azərbaycan Milli Olimpiya Komitəsinin, "Neftçi" İdman-Sağlamlıq Klubunun və digər idman qurum və təşkilatlarının nümayəndələri iştirak ediblər.



## Yeniyetmə taekvondoçularımız Misirə yollanacaqlar

Avqustun 24-də Misirin Şarm Əl-Şeyx şəhərində yeniyetmə taekvondoçular arasında dünya birinciliyi start götürəcək. Sayca üçüncü dəfə təşkil ediləcək birincilikdə Azərbaycan komandası da mübarizə aparacaq. Yarışda komandamız 9 (6 oğlan, 3 qız) idmançı ilə qüvvəsini sınayacaq.

Baş məşqçi Səbuhi Zülfüqarov və böyük məşqçi Sənan Həşimovun rəhbərliyi ilə dünya birinciliyində iştirak edəcək komandamız avqustun 29-da vətənə qayıdacaq.

Yarışda hakim qismində ölkəmizi beynəlxalq dərəcəli hakim Elşad Məmmədov təmsil edəcək.

# Təmsilçimiz beynəlxalq reytinq cədvəlində irəliləyib



Beynəlxalq İdman Atıcılıq Federasiyası yeni reytinq cədvəlini açıqlayıb. Siyahıda "Neftçi İdman Klubu"nun yetirmələri da yer alıblar. Ötən ayla müqayisədə mövqeyini yaxşılaşdıran Ruslan Lunyov həm 10 metr, həm də 25 metr məsafəyə atəşaçmada bir pillə irəliləyib. O, müvafiq olaraq, 28-ci və 10-cu pillələrə yüksəlib.

Klubun digər atıcısı Nigar Nəsirova isə mövqeyini qoruyub. Xanım idmançımız 10 metr məsafəyə atəşaçmada yenə də 58-ci yerdədir.

## Səudiyyə Ərəbistanı millisi paytaxtımızda təlim keçəcək

Səudiyyə Ərəbistanının ağırlıqqaldırma üzrə yığma komandası Azərbaycana təlim-məşq toplanışına gələcək.

Məqsəd qarşıdakı beynəlxalq yarışlara ciddi hazırlıqdır. On altı nəfərlik heyət milli komandamızın Xırdalandakı AAAF Park Yaşayış Kompleksində yerləşən mərkəzi ağır atletika təlim-məşq bazasında məskunlaşacaq.

Atletlər ölkəmizdə avqustun 21-dən sentyabrın 16-dək hazırlıq keçəcəklər. Bu toplanış milli komandalarımızın üzvləri, həmçinin federasiyalar arasında dostluq və əməkdaşlıq əlaqələrinin genişləndirilməsi, təcrübə mübadiləsinin artırılması, həmrəylik dəyərlərinin qorunması və möhkəmləndirilməsi baxımından da əhəmiyyət daşıyır.

## İbn Sina Kuboku başlayıb

İranın Həmədan şəhərində şahmat üzrə XIV İbn Sina Kuboku yarışına start verilib. "A" qrupunda 12 ölkədən 55 şahmatçı, o cümlədən 14 qrossmeyster iştirak edir. Azərbaycanı turnirdə qrossmeyster Vüqar Rəsulov və beynəlxalq dərəcəli usta Loğman Quliyev təmsil edirlər.

İsveçrə sistemi üzrə keçiriləcək İbn Sina Kuboku 9 turdan ibarətdir.

# Ən güclülər Bakıya toplaşacaqlar

***Azərbaycan Respublikası Atçılıq Federasiyası (ARAF) və "World Polo" MMC-nin təşkilatçılığı ilə sentyabrın 8-10-da FİP arena polo üzrə dünya kuboku yarışları keçiriləcək. Bu yarış "CBC sport" kanalı tərəfindən yayımlanacaq.***

Artıq beş ildir ARAF "World Polo" MMC, Reto Gaudenzi və onun komandası ilə birlikdə mükəmməl və yüksək səviyyəli arena polo turnirinin keçirilməsinə nail olur. Bu müddət ərzində Reto Gaudenzi ARAF-ın prezidenti Elçin Quliyev tərəfindən federasiyanın beynəlxalq səviyyədə rəsmi nümayəndəsi təyin edilib.

"Elite Horse and Polo Club" arenasında keçiriləcək

dünya kubokunda "Grand Champions Polo Club", "Elite Horse and Polo Club", "Monte Carlo Polo Team" və "Eyviva Polo Club" komandaları mübarizə aparacaqlar. Bu mötəbər yarışda ölkəmizi "Elite Horse and Polo Club" komandasının heyətində Elçin Camallı (kapitan), Rəşad Həsənov, Əli Rzayev, Amil Namazov və Tərlan Qurbanəliyev təmsil edəcəklər.

Xatırladaq ki, Azərbaycan polonun vətəni kimi tanınır və bu idman növü Bakıya 2013-cü ildə, "Grass Arena Polo World Cup Azerbaijan" yarışması ilə qayıdıb. Son illərdə "World Polo" MMC Reto Gaudenzinin rəhbərliyi, ARAF-ın və "Elite Horse and Polo Club"un dəstəyi ilə Azərbaycanın paytaxtında dörd uğurlu polo tədbiri keçirib. İlk iki ildə qazanılmış böyük uğurun davamı olaraq 2015-ci il Bakı tarixdə ilk FİP arena polo Avropa çempionatına da ev sahibliyi edib. 2020-ci ildə keçiriləcək otüstü polo üzrə Avropa çempionatına ev sahibliyi etmək üçün Bakının da namizədliyi irəli sürülüb.

# Həvəskarlar üzgüçülük turnirində yarışıblar

***Avqustun 19-da Azərbaycan İdman Jurnalistləri Assosiasiyası (AİJA), "Olimpiya dünyası" qəzeti və "Sportsman" jurnalının birgə təşkilatçılığı ilə Milli Olimpiya Komitəsinin 25 illiyinə həsr olunmuş həvəskarlararası üzgüçülük yarışı keçirilib.***



"Fairmont" hotelin "ESPA" Sağlamlıq Mərkəzində təşkil olunan turnirdə 18 (15 kişi, 3 qadın) iştirakçı qalib adı uğrunda mübarizə aparıb. Yarışın reqlamentinə əsasən iştirakçılar təsnifat mərhələsində üç-üç mübarizəyə başlamaqla 20 metr məsafəni qət ediblər. Bu mərhələdə ən yaxşı nəticə göstərən həvəskar üzgüçülər finala vəsiqə qazanıblar. Həlledici mərhələdə Əli Cəlallı 40 metr məsafəni hamıdan tez qət edərək (27,36 san.) birinci yerə layiq görülüb. Liderdən 4 saniyə geri qalan Davud Niyazov ikinci yerə sahib çıxıb. İlk "üçlüy"ü Rasim Tahirov (34,16 san.) tamamlayıb.

Qadınların yarışında Nigar Əlizadə (27,18 san.) birinci, Gülnar Məmmədli (40,22 san.) ikinci, Mehbarə Məmmədli (41,34 san.) isə üçüncü yeri tutub.

Yarışlar başa çatdıqdan sonra mükafatlandırma mərasimi keçirilib. AİJA-nın prezidenti Eldar İsmayılov, "Olimpiya dünyası" qəzetinin baş redaktorunun müavini Aslan Şirəliyev çıxış edərək, qalibləri təbrik ediblər və belə yarışların gələcəkdə də təşkil olunacağını vurğulayıblar. Qaliblərə təşkilatçılar tərəfindən qiymətli hədiyyələr təqdim olunub.

# "Qarabağ" tarixi şansın astanasında

***Bu gün UEFA Çempionlar Liqasında (ÇL) pley-off mərhələsinin cavab oyunlarına start veriləcək. İki gün ərzində 10 matç təşkil olunacaq.***

Qitənin ən nüfuzlu klub turnirinin qrupuna düşməyə iddia edən 20 komanda son 10 vəsiqənin sahibini müəyyənləşdirəcək. İlk oyun gününə "Astana" ilə "Seltik" arasında görüşlə start veriləcək. Qonşu Türkiyə təmsilçisi "Başakşəhər" evdə uduzduğu "Sevilya"nı səfərdə keçməyə çalışacaq.

İkinci oyun günündə isə Azərbaycan futbolsevərlərinin diqqəti Danimarkada olacaq. Çempionumuz "Qarabağ" səfərdə "Kopenhagen" klubu ilə münasibətlərinə aydınlıq gətirəcək. İlk matçda minimum hesabla qələbə qazanan təmsilçimizin qrup mərhələsinə vəsiqə qazanmaq üçün səfərdə heç-heçə də etməsi kifayətdir.

Bu oyun həm də yubileylə əlamətdar olacaq. Səfər görüşü Azərbaycan futbolu tarixinə 300-cü avrokubok sınağı kimi düşəcək. İndiyədək qitəmiqyaslı turnirlərdə 299 matça çıxan klublarımızın yubileyi Ağdam təmsilçisinin qrupa düşməsini də rəsmiləşdirə bilər. Bu gerçəkləşsə, tarixi oyun tarixi nailiyyətlə əlamətdar olacaq.

Qitəmiqyaslı turnirlərdə 1994/95-ci illər mövsümündə debüt edən Azərbaycan "300"ə 22-ci futbol ilində çatır. Lakin ölkəmiz iki dəfə - 2002/03-cü və 2003/04-cü illər mövsümlərində qitə "səhnə"sindən kənar qalıb.

Danimarkadakı 300-cü avrokubok oyunu həm də Çempionlar Liqası üçün də yubiley - 60-cı olacaq. Ümid edirik ki, yubiley matçında "Qarabağ" sərfəli nəticə əldə edib, ölkə futbolumuzun tarixində ilk dəfə olaraq ÇL-in qrupuna vəsiqə qazanacaq.




***UEFA Çempionlar Liqası***

**Pley-off mərhələsi, cavab oyunu**

23 avqust

**22:45. "Kopenhagen" (Danimarka) - "Qarabağ" (Azərbaycan)**

**Hakimlər:** Alberto Undiano Mallenko, Roberto Alonso Fernandes, Raul Kabanyero Martines, Dieqo Barbero Sevilya.

**Əlavə hakim köməkçiləri:** Alexandro Xose Enandes, Xose Mariya Sançes Martines (hamısı İspaniya).

***İlk oyun - 0:1***

*Ölkəmizin ev sahibliyi etdiyi IV İslam Həmrəyliyi Oyunlarında komandamız ümumilikdə 162 medal əldə etdi. Qazanılan medallardan 4-ü stolüstü tennisçilərimizin payına düşdü. Stolüstü tennisçilərimiz Bakı-2017-də fərdi və komanda yarışlarında mübarizə apardılar. Tennisçilərimiz bu Oyunların fərdi yarışlarında bir gümüş və bir bürünc medala layiq görüldülər. Komanda yarışları da təmsilçilərimiz üçün uğurlu oldu. Qadınlardan ibarət komandamız gümüş medal, kişilərdən ibarət komandamız isə bürünc medala sahib çıxıb. IV İslam Həmrəyliyi Oyunlarından sonra stolüstü tennisçilərimiz Portuqaliyada keçirilən gənclər arasında Avropa çempionatında iştirak ediblər. Komandamız Portuqaliyadan 1 qızıl, 1 gümüş və 1 bürünc medalla vətənə döndü.*

*Əldə olunan nəticələr göstərir ki, stolüstü tennis ölkəmizdə inkişaf etməkdədir. Bu barədə daha ətraflı məlumat almaq üçün Azərbaycan Stolüstü Tennis Federasiyasının vitse-prezidenti Fazil Məmmədovla görüşdük.*

## Fazil Məmmədov:

# “Tennisçilərimiz Azərbaycanın idman tarixində yeni bir səhifə açırlar”



***- Fazil müəllim, istərdik söhbətimizə stolüstü tennisçilərimizin IV İslam Həmrəyliyi Oyunlarındakı uğurlu çıxışı ilə başlayaq. Komandamız məhz ölkəmizdə keçirilən mötəbər yarışda ilk dəfə, böyük uğura nail oldu.***

- Söhbətimizə bir neçə il bundan əvvələ qayıtmaqla başlamaq istərdim. 2014-cü ildə “Olimpiya dünyası” qəzetində mənim “Ümid edirik ki, yığma komandamızın üzvləri yaxın gələcəkdə öz uğurları ilə xalqımızı sevindirəcəklər” başlıqlı müsahibəm dərc olunmuşdu. Bu gün artıq həmin o uğurlu günləri yaşayırıq. Çox qısa zamanda federasiyada böyük dəyişikliklər həyata keçirildi. Bütün idman növlərində olduğu kimi, stolüstü tennisdə də inkişaf artıq özünü göstərir. Tennisçilərimiz Azərbaycanın idman tarixində yeni bir səhifə açırlar. Bu nəticələrin hamısı Azərbaycan idmanının təbliğinə, inkişafına xidmət edir. İdmana yeni başlayan yeniyetmə və gənc idmançılar bu uğurları gördükcə onlarda da həvəs yaranır. Bizim də ən başlıca məqsədimiz ölkəmizdə stolüstü tennisin populyarlığına nail olmaq, bu idman növünü inkişaf etdirmək, uşaq və gənclərin fiziki sağlamlığına xidmət etməkdir. IV İslam Həmrəyliyi Oyunlarına komandamız çox yaxşı hazırlaşmışdı. İdmançılarımız Çin Xalq Respublikasında və Bakıda təlim-məşq toplanışlarında iştirak etmişdilər. Komandamız yarışda 4 kişi və 4 qadın idmançı ilə mübarizə aparırdı. Yarışlar fərdi və komanda şəklində keçirildi. Çalışırdıq ki, stolüstü tennsiçilərimiz bu yarışda layiqincə çıxış etsinlər. Bunun üçün bütün qüvvələrimizi səfərbər etmişdik. Təbii ki, hamı kimi, bizim də əsas məqsədimiz doğma vətənimizdə keçirilən yarışda medal qazanaraq Azərbaycan milli komandasının qələbəsində pay sahibi olmaq idi. Çox şükür ki, bu istəyimizə nail olduq. Qadınların komanda yarışında gümüş, kişilərin mübarizəsində isə bürünc medal əldə etdik. Qadın tennisçilərimizdən Zinq Ninq Bakı-2017-nin fərdi yarışlarında gümüş, digər tennisçimiz Miao Vanq isə bürünc medala layiq görüldü.

***- Hər kəs qadın komandamızın finalda qızıl medal qazanacağını gözləyirdi. Təəssüf ki, həlledici mərhələdə iranlı idmançılar daha üstün oyun nümayiş etdirdilər. Sizcə, tennisçilərimizin qızıl medal qazanmasına nə mane oldu?***

- Qadınların yarışında komandamız birinci olmalı idi. İran komandası bizim tennisçilərimizdən qat-qat zəifdir. Düşünürdüm ki, komandamız çox rahatlıqla İran millisinə qalib gələcək. Təəssüf ki, finalda fərqli mənzərə ilə qarşılaşdıq. Ola bilsin ki, təcrübə baxımından komandamız İran millisindən bir qədər geri qaldı. Komandamızın heyəti yeni qurulub, hamısı gənclərdir. Buna baxmayaraq, gümüş medal da komandamız üçün pis nəticə deyil. Onu da deyim ki, komandamızın üzvləri ötən il yeniyetmələrin yarışlarında çıxış edirdilər. İdmançılarımız bu ildən başlayaraq gənclərin yarışında mübarizə aparırlar. İnanıram ki, yığmamız qarşıdakı illərdə tam möhkəmlənəcək.

***- Federasiya növbəti illərdə də Asiya məktəbinin təcrübəsindən yararlanacaqmı?***

- Komandamız 2014-2015-ci illərdə Avropa məktəbinin təcrübəsini öyrənirdi. Hətta biz polşalı mütəxəssis Leşek Kuxarski ilə də müqavilə bağlayaraq onu yığma komandaya baş məşqçi vəzifəsinə təyin etmişdik. Biz həmin məşqçinin təcrübəsini də öyrəndik, dəfələrlə Polşada təlim-məşq toplanışlarında da iştirak etdik. Bir faktı qeyd edim ki, dünya idmanında stolüstü tennisdə əsasən Avropa və Asiya məktəbi formalaşıb. Biz hər iki məktəbin təcrübəsini öyrəndik. Lakin etiraf edim ki, Asiya məktəbi dünyada liderdir və biz də bu təcrübədən faydalanmağa çalışdıq. Komandalarımızı təlim-məşq toplanışları üçün Çinə yollayırıq. 1960-cı ildə Çin Xalq Respublikası stolüstü tennisi milli idman növü elan edib. Çində 30 milyon insan peşakar tennislə məşğuldur. Bu, yetərincə böyük rəqəmdir. Yadınızdadırsa, Bakı-2015-də qadınlar arasında keçirilən stolüstü tennis yarışlarında Hollandiya millisi birinci yeri tutdu. Həmin heyətin əsas üzvləri çinli idmançılar idi. Yəni demək istəyirəm ki, stolüstü tennisdə bütün ölkələr Çin məktəbinin təcrübəsindən yararlanır. Biz də bu təcrübədən yararlandıq.

***- Stolüstü tennisçilərimiz Portuqaliyada keçirilən gənclərin Avropa çempionatında da uğurlu çıxış etdilər. Bunu ölkəmizdə stolüstü tennisin inkişafının göstəricisi kimi qiymətləndirmək olarmı?***

- Portuqaliyada keçirilən Avropa çempionatı stolüstü tennisçilərimiz üçün uğurla başa çatdı. Bu yarışda 44 Avropa ölkəsindən 520 idmançı iştirak edirdi. Komandamız yarışda 3 oğlan və 4 qız idmançı ilə təmsil olunurdu. Gənc qızların şəxsi birinciliyində Ning Zing birinci yeri tutaraq qızıl medala sahibi oldu. Bu, Azərbaycanın müstəqillik illərində stolüstü tennis növü üzrə qazandığı ən yüksək nəticəsidir. Portuqaliyada idmançımızın qələbəsi münasibəti ilə Azərbaycan himni səsləndirildi. Bu, bizim üçün qürurverci haldır. Gənc qızlardan ibarət millimiz komanda yarışlarında üçüncü, qoşa yarışlarda isə ikinci yeri tutdu. Yığma komandanın üzvləri Portuqaliyadan qayıtdıqdan sonra Azərbaycan Stolüstü Tennis Federasiyanın prezidenti Şahin Mustafayev onlarla görüşdü. Federasiya prezidenti Avropa çempionatında uğurla çıxış edən stolüstü tennisçilərimizi qələbə münasibəti ilə təbrik etdi, onları mükafatlandırdı. Belə münasibət idmançılarda əlavə stimul yaradır.

***- IV İslam Həmrəyliyi Oyunları çərçivəsində Anlaşma Memorandumu imzalandı. Bu müqavilənin əhəmiyyəti nədən ibarətdir?***

- IV İslam Həmrəyliyi Oyunları çərçivəsində Azərbaycan, İran və Türkiyə Stolüstü Tennis Federasiyaları arasında Anlaşma Memorandumu imzalanıb. Memorandum idmançıların perspektivlərini artırmağı, təcrübə mübadiləsi üçün qarşılıqlı klub liqa yarışlarında iştirak etməyi, birgə təlim-məşq toplanışları və turnirlər təşkil etməyi, ev sahibi olduğu bütün turnirlərdə digər tərəfin idmançılarını da dəvət etməyi nəzərdə tutur. İnanıram ki, bu Memorandum Azərbaycanda stolüstü tennis idman növünün inkişafına daha da təkan verəcək. Qeyd edim ki, digər ölkələrin stolüstü tennis federasiyaları da bu Anlaşma Memorandumuna qoşulmaq istəyir.



***- Komandamızı qarşıda hansı yarışlar gözləyir?***

- Stolüstü Tennsi Federasiyasının təşkilatçılığı ilə təqvim planına əsasən il ərzində 30-a yaxın yarış keçiririk. Bizim əsas məqsədimiz yeniyetmə idmançıları seçib üzə çıxarmaq və onlar arasında yarışlar təşkil etməklə təcrübələrini artırmaqdır.

***- Sumqayıt şəhərində dənizkənarı parkda müasir idman kompleksi tikilərək gənc tennisçilərimizin istifadəsinə verilib...***

- Komandamızın əsas təlim məşq bazası “Şüa” İdman-Sağlamlıq Kompleksidir. Sumqayıtdakı idman kompleksi isə köməkçi bazadır. Orada Sumqayıtın perspektivli idmançıları, məşqçiləri məşğul olurlar. Həmin arenada təlim-məşq toplanışları və bir çox yarışlar da keçirilir. Hər həftənin sonu həmin bazada uşaqlar arasında yarışlar təşkil olunur ki, bu da onların təcrübə qazanmasında mühüm rol oynayır.

*Azər Əlizadə*



# Kikboksçular Sumqayıtda yarışıblar

***Gənclər və İdman Nazirliyi, Azərbaycan Kikboksinq Federasiyası və Sumqayıt Şəhər İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə ümummilli lider Heydər Əliyevin xatirəsinə həsr olunan kikboksinq idman növünün K-1 üslubu üzrə peşəkarlararası beynəlxalq turnir keçirilib.***

Yarışdan bir gün əvvəl - avqustun 18-də Beynəlxalq Mətbuat Mərkəzində mətbuat konfransı təşkil olunub.

Mətbuat konfransında çıxış edən Azərbaycan Kikboksinq Federasiyasının vitse-prezidenti Güloğlan Cabbarov turnirin Sumqayıt şəhərindəki dənizkənarı bulvar ərazisində “Kikboksinq narkomaniya və uşaq cinayətkarlığına qarşı” şüarı ilə keçiriləcəyini bildirib. Vitse-prezident qeyd edib ki, turnirdə Azərbaycanın 17, Gürcüstanın 2 və Pakistanın 1 idmançısı olmaqla, ümumilikdə, 20 peşəkar kikboksinq ustası reytinq döyüşlərində mübarizə aparacaq. “Kikboksçular yeddi çəki dərəcəsində və beynəlxalq kikboksinq qaydalarına uyğun olaraq qələbə uğrunda yarışacaqlar.

Döyüşlər üç raunddan ibarət olacaq. Turnirdə 57, 60, 63, 67, 75, 86 kiloqram və 91 kiloqramdan yuxarı çəki dərəcələrində yüksək ustalığa malik peşəkar kikboksçular mübarizə aparacaqlar.

Turnirdə, həmçinin K-1 üslubu üzrə dünya oyunları kəməri, Azərbaycan kəməri və Dünya Kikboksinq Təşkilatları Assosiasiyası-WAKO-PRO versiyası üzrə K-1 üslubunda qitələrarası kəməri uğrunda üç döyüş keçiriləcək”, - deyə o əlavə edib.

Avqustun 19-da keçirilən beynəlxalq turnirin açılış mərasimində Sumqayıt Şəhər İcra Hakimiyyəti başçısının müavini Faiq Kərimov, Azərbaycan Kikboksinq federasiyasının prezidenti Adil Əliyev çıxış edərək Azərbaycanda idmanın inkişafından söhbət açıblar. Natiqlər ölkəmizdə idmana göstərilən dövlət qayğısını yüksək qiymətləndiriblər. Çıxışlardan sonra yarışlara start verilib. İdmançılar beynəlxalq turnirdə uğurla mübarizə aparıblar. Qaliblərə diplom və mükafatlar təqdim olunub.

# Boksçularla görüş keçirilib

***Azərbaycan Boks Federasiyasının (ABF) vitse-prezidentləri Süleyman Mikayılov və Rövşən Hüseynov dünya çempionatına yollanacaq milli komandanın üzvləri ilə görüşüblər. Yığıncaqda boksçularla yanaşı, ABF-in baş katibi Nağı Səfərov, yığmanın rəisi Anar Məmmədov və məşqçilər korpusu iştirak ediblər.***

Komandanın hazırkı vəziyyəti ilə maraqlanan Süleyman Mikayılov Almaniyanın Hamburq şəhərində keçiriləcək dünya çempionatında hər bir boksçumuzdan uğurlu çıxış gözlədiyini bildirib. O, əvvəlki dünya çempionatında olduğu kimi, bu dəfə də yığmamızın azarkeşləri sevindirəcəyinə ümid etdiyini deyib.

Komandamızın baş məşqçisi Leonid Loivski təlim-məşq toplanışlarının plana uyğun getdiyini və milli üzvlərinin yarışa tam hazır olduğunu vurğulayıb. Bildirib ki, dünya çempionatına lisenziya qazanan hər bir boksçu turnirdə medal qazanmaq gücündədir.

Yığma komandanın üzvləri Lorenzo Sotomayor (64 kq), Pərviz Bağırov (69 kq), Kamran Şahsuvarlı (75 kq) və Məhəmmədrəsul Məcidov (+91 kq) Hamburqda mükafatçılar sırasında yer alacaqlarını deyiblər.

Baş katib Nağı Səfərov və vitse-prezident Rövşən Hüseynov da komanda üzvləri ilə fikir mübadiləsi aparıblar. Qeyd olunub ki, lazımı təlim-məşq toplanışı keçən millimiz son analoji yarışlarda olduğu kimi, bu dəfə də ölkəmizi layiqincə təmsil etməyə hazırdır.

Görüşdə gənclərdən ibarət yığmanın baş məşqçisi Vaqif Şirinov komandası barədə məlumat verib. O, Avropa birinciliyinə hazırlaşan heyətdə güclü boksçuların yer aldığını vurğulayıb.

Qeyd edək ki, dünya çempionatına lisenziya qazanan Abdulqadir Abdullayev (91 kq) Hamburqa yollanmayacaq. Həkimlər təlim-məşq zamanı zədələnən boksçunun rinqə çıxmasına icazə verməyiblər.

# Azərbaycan çempionatına yekun vurulub



***Avqustun 20-də Bakı Su İdmanı Sarayında çimərlik həndbolu üzrə ikinci Azərbaycan çempionatına yekun vurulub.***

***Turnirin final oyunlarından əvvəl Avropa Həndbol Federasiyası (EHF) və Azərbaycan Həndbol Federasiyasının təşkilatçılığı ilə çimərlik həndboluna dair seminar keçirilib.***

Seminardan sonra çimərlik həndbolu üzrə final yarışlarına start verilib. Əvvəlcə, meydana kişi həndbolçular çıxıblar. Günün ilk oyununda “Bakı” komandası Respublika İxtisaslaşdırılmış Olimpiya Ehtiyatları Uşaq-Gənclər İdman Məktəbinin (RİOEUGİM) təmsilçilərini 2:0 hesabı ilə məğlub edib. “Təhsil” klubu ilə üz-üzə gələn “Məhsul” kollektivi isə rəqibinə 2:1 hesabı ilə qalib gəlib. Bu nəticələrdən sonra “Məhsul” klubu çempionatda birinci yerə layiq görülüb. “Bakı” komandası ikinci, “Təhsil” kollektivi isə üçüncü yeri tutub. Qadın həndbolçular arasında isə Mingəçevirin “Nur” komandası ikiqat ölkə çempionluğunu rəsmiləşdirib. “Azəryol-1” kollektivi gümüş medalların sahibi olub. “Qarabağ” klubu isə üçüncü pillədə qərarlaşıb.

Yarışlardan sonra qaliblərin mükafatlandırılması və yarışın təntənəli bağlanış mərasimi keçirilib.

Azərbaycan Həndbol Federasiyasının vitse-prezidenti Orxan Abbasov çıxış edərək üç gün ərzində keçirilən çempionatın uğurla başa çatdığını bildirib. Vitse-prezident qalibləri təbrik edib və onlara uğurlar arzulayıb.

Sonra qalib və mükafatçılar təltif ediliblər.

Qeyd edək ki, üç gün ərzində davam edən çempionat çərçivəsində, ümumilikdə 21 oyun keçirilib.

# Turnir cədvəlində “üçhakimiyyətlilik”dir

Ötən həftə Topaz Premyer Liqasında II tura yekun vuruldu. Dörd matçdan ikisi səfərdə keçirilib. “Zirə”, “Qarabağ” və “Qəbələ” klubları ilk oyunda olduğu kimi, bu tur da qələbə qazanaraq, liderlər sırasında irəliləyirlər.



### Topaz Premyer Liqası

***II tur***

**19 avqust (şənbə)**

“Səbail” - “Neftçi” - 1:0

**Qol:** Elman Taqayev, 90.

**Hakimlər:** Ramil Diniyev, Mübariz Haşımov, İsgəndər Əliyev, Orxan Məmmədov.

***Bakı. “Dalğa Arena” stadionu.***

Turun açılış matçı “Dalğa Arena”da təşkil olunub. Premyer Liqanın debütantı “Səbail” ölkənin ən titullu klubu “Neftçi” ilə münasibətlərinə aydınlıq gətirib. Oyunun taleyini bir qol həll edib. Yeganə qol debütantdan gəlib. Matçın 90-cı dəqiqəsində Elman Taqayevin vurduğu qol “Səbail”ə qələbə qolunu vuraraq, komandanın sürpriz nəticəyə imza atmasına şərait yaradıb.

“Qarabağ” - “İnter” - 1:0

**Qol:** Əfran İsmayılov, 89.

**Hakimlər:** Rauf Cabbarov, Azər Əsgərov, Elman Musayev, İnqilab Məmmədov.

***Bakı. “Azərsun Arena” stadionu.***

Günün son matçı Suraxanıda olub. Ötən mövsümün mükafatçıları - “Qarabağ” və “İnter”in qarşılaşmasında sevinən tərəf meydan sahibləri olub. Bu oyunda da son dəqiqələrdə vurulan qol matçın taleyini həll edib. “Qarabağ”a 3 xal qazandıran qola Əfran İsmayılov imza atıb.

**20 avqust (bazar)**

“Kəpəz” - “Zirə” - 0:3

**Qollar:** Nicat Qurbanov, 22, Təmkin Xəlilzadə, 49; 88.

**Hakimlər:** Rəvan Həmzəzadə, Yaşar Abbasov, Vüsal Qənbərov, Rəhim Həsənov.

***Yevlax. Şəhər stadionu.***

Uzun fasilədən sonra Yevlax şəhər stadionu Premyer Liqa oyununa ev sahibliyi edib. “Zirə” məhz bu arenada “Kəpəz” klubunun qonağı olub. Çempionata qələbə ilə başlayan qəsəbə təmsilçisi uğurunu paytaxtdan kənarda da davam etdirib. Ayxan Abbasovun yetirmələri rəqibini meydana çıxmağa peşman edib. “Zirə” gəncəlilərin qapısından 3 cavabsız top keçirib.

| | O | Q | H | M | T | X |
|---|---|---|---|---|---|---|
| *1. Zirə* | *2* | *2* | *0* | *0* | *5-1* | *6* |
| *2. Qarabağ* | *2* | *2* | *0* | *0* | *4-1* | *6* |
| *3. Qəbələ* | *2* | *2* | *0* | *0* | *3-1* | *6* |
| *4. Səbail* | *2* | *1* | *0* | *1* | *2-2* | *3* |
| *5. Sumqayıt* | *2* | *1* | *0* | *1* | *2-2* | *3* |
| *6. İnter* | *2* | *0* | *0* | *2* | *1-3* | *0* |
| *7. Neftçi* | *2* | *0* | *0* | *2* | *1-4* | *0* |
| *8. Kəpəz* | *2* | *0* | *0* | *2* | *1-5* | *0* |

“Qəbələ” - “Sumqayıt” - 1:0

**Qol:** Tellur Mütəllimov, 40.

**Hakimlər:** Əliyar Ağayev, Rza Məmmədov, Akif Əmirəli, Ömər Paşayev.

***Qəbələ. Şəhər stadionu.***

“Qəbələ” doğma azarkeşlər önündə “Sumqayıt” klubu ilə qarşılaşıb. Roman Qriqorçukun yetirmələri meydanı 3 xalla başa vurublar. İlk hissədəki 1 qol qələbə üçün kifayət edib. Matçın 40-cı dəqiqəsində Tellur Mütəllimovun vurduğu qol qəbələlilərə 3 xal qazandırıb.

# Elxan Abdullayev istefa verdi

***“Neftçi” klubu baş məşqçisi Elxan Abdullayevlə yolları ayırıb. 47 yaşlı çalışdırıcı dünən vəzifəsindən istefa verib. Belə ki, istefa ərizəsi ilə “Neftçi” rəhbərliyinə müraciət edən mütəxəssisin istəyi qəbul edilib.***

***“Neftçi” Elxan Abdullayevə klub üçün etdiklərinə görə minnətdarlıq edərək, ona gələcək işlərində uğurlar arzulayıb.***

Elxan Abdullayev baş məşqçi vəzifəsindən istefa verəndən sonra klubun rəsmi saytına danışıb. O, klubdan ayrılma səbəblərini açıqlayıb: “Hər şeydən əvvəl “Neftçi” rəhbərliyinə mənə inandığı və şans verdiyi üçün minnətdarlığımı bildirirəm. 3 illik müqavilənin qüvvədə olmasına baxmayaraq, komandanın ilk iki turda göstərdiyi nəticələrin məsuliyyətini üzərimə götürərək istefa verdim. Bu qərar heç də asan başa gəlmədi və hər hansı bir kənar təzyiqlə bağlı deyil. Mübariz bir insan kimi indiyədək hansısa təzyiq və tənqidlərdən çəkinməmişəm. Sadəcə, son nəticələri “Neftçi”nin böyük tarixinə yaraşdırmadım. Hər şeydən maksimum əldə etməyə çalışan bir insanam və bu çətin vəziyyətdən çıxış yolunu getməkdə gördüm. Ümid edirəm ki, bu qərarım “Neftçi”yə yalnız xeyir verər. Klubda çalışdığım müddətdə mənə inanan və dəstək olan hər kəsə, hər bir azarkeşə təşəkkür edirəm”.

Qeyd edək ki, Elxan Abdullayev ötən ildən “ağ-qaralar”ı çalışdırırdı.



# Useyn Bolt futbol oyununda iştirak edəcək




Yamaykalı sprinter Useyn Bolt İngiltərənin “Mançester Yunayted” komandasının heyətində veteran futbolçularla birgə İspaniyanın “Barselona” komandası ilə xeyriyyə matçında iştirak edə bilər. Olimpiya çempionunun görüşdə iştirakı onun zədəsinin sağalmasından asılı olacaq. Useyn Bolt avqustun 13-də peşəkar karyerasını başa vurduğu Londonda keçirilən atletika üzrə dünya çempionatında xəsarət alıb.

Qeyd edək ki, İngiltərənin “Berton Albion” komandası karyerasını futbolda davam etdirmək istəyən 31 yaşlı idmançını heyətinə baxışa dəvət edib.




# *Mik Şumaxer atasının avtomobilində yarışacaq*

***“Formula-1” yarışının yeddiqat dünya çempionu Mixael Şumaxerin oğlu Belçika Qran-prisi çərçivəsində nümunəvi yürüşlərdə atasının ilk titulunu qazandığı avtomobilin sükanı arxasında oturacaq.***

Bu günlərdə “Spa-Frankorşam” trasında test yürüşləri zamanı “Benetton B194” kokpitində Mik Şumaxer olub. Yürüşçü qara rəngli dəbilqə geyinib.

Mikin nümunəvi yürüşləri avqustun 27-də Belçika Qran-prisinin startından bir saat əvvəl və pilotların ənənəvi paradından sonra keçiriləcək.

Bu hadisə Mixael Şumaxerin “Spa-Frankorşam” trasında “Formula-1” yarışlarında birinci qələbəsinin 25 illiyinə həsr olunacaq. Vaxtilə bu qələbə almaniyalı pilot üçün Belçika avtodromunda dalbadal altı qələbə seriyasından birincisi olub.

# Futbol təhlükəli peşədir?

## Kolumbiyada son illər bu oyun futbolçu və hakimilər üçün təhlükəyə çevrilib

***Ən təhlükəli peşə hansıdır? Müxtəlif ölkələrdə bu mövzuda sorğu keçirsək, müxtəlif cavablar almaq olar. Nə qədər təəccüblü olsa da, Kolumbiyada ən təhlükəli peşələrdən biri futbolçu peşəsi sayılır. Əslində burada təəccüblü heç nə yoxdur. Kolumbiya futbolunda baş vermiş faciələr dediklərimizə sübutdur: hesablamalara görə, adıçəkilən ölkədə 12 futbolçu və bir futbol hakimi qətlə yetirilib. Cənubi Amerikanın bu ölkəsində futbol klubları rəhbərlərinin də öldürülmələri hallarına rast gəlinir. “Onse Kaldas” klubuna Libertadores kubokunu qazandırmış məşqçi Luis Fernando Montoya 2004-cü ildə arvadını oğurlamaq istəyən iki cinayətkar tərəfindən boynunun sol tərəfindən iki güllə yarası almış və ağır cərrahiyyə əməliyyatına məruz qalmışdı.***




*(əvvəli ötən sayımızda)*

### *Məşhur İgita da dəfələrlə ölüm təhlükəsi ilə üzləşib*

Məşhur qapıçı Rene İgita da dəfələrlə ölüm təhlükəsi ilə üzləşib və vaxtilə cangüdənlərlə gəzib. Onun evinə bomba atılıb, yaralanıb, həbsxanada yatıb.

### *Növbəti cinayət*

Kolumbiya futbolunda növbəti dəfə faciə baş verib. Ölkə futbol yığmasının 28 yaşlı hücumçusu Elson Beserra Kartaxena şəhərindəki gecə klublarının birində dostu Aleksandr Rios ilə birlikdə güllənərək qətlə yetirilib. O, rəqs edərkən naməlum şəxslər diskotekaya daxil olaraq, ona dörd atəş açıblar. “Varqas” hospitalına aparılan futbolçu elə oradaca keçinib.

### *Killerlər bəllidir*

Yerli polisin rəhbəri Maurisio Aqudelanın sözlərinə görə, futbolçu və dostunun hadisədən bir neçə gün əvvəl onları güllələyən şəxslərlə mübahisəsi düşdüyü və qatillərin onları izləyərək populyar La Bokilla rayonundakı gecə klubuna gəldikləri güman olunur. Hüquq-mühafizə orqanının təmsilçisi deyib: **“Killerlər diskotekada maqamı gözləyərək, musiqinin ortasında atəş açıb iki nəfəri qətlə yetiriblər”.** Qətldən dərhal sonra polisin verdiyi məlumata görə, hadisədə şübəli bilinən şəxslərin kimliyi bəllidir və onların həbsi hər an baş verə bilər.

### *“Balaca şokolad” “Əl-Cəzirə”də oynayırdı*

“Balaca şokolad” ləqəbli Beserra 2003/04 mövsümündən Birləşmiş Ərəb Əmirliklərində “Əl-Cəzirə” klubunda çıxış edirdi. Yeri gəlmişkən, bu komanda hazırkı BƏƏ çempionatında 1-ci dövrədən sonra 3-cü yeri tutur.

“Əl-Cəzirə”dən əvvəl isə kolumbiyalı hücumçu vətənində “Deportes Tolima”, “Amerika” (Kali), “Atletiko Xunior” (Barrankilya) klublarında çıxış edib.

### *Amerika kubokunun qalibi olub*

Beserra Kolumbiya yığmasının aparıcı futbolçusu olmasa da, bu komandanın heyətində 2001-ci ildə Amerika kubokunu qazanıb. Düzdür, Beserra həmin yarışda cəmi 2 oyunda, özü də ikinci hissədə meydana çıxıb. 2003-cü ildə o, Kolumbiya millisinin heyətində Konfederasiyalar kubokunda 4-cü yeri tutub: bu turnirdə isə komandasının keçirdiyi 5 görüşdən 4-də forma geyib. Qeyd edək ki, 3-cü yer uğrunda matçda Kolumbiya Türkiyə ilə qarşılaşıb və 1:2 hesabı ilə məğlub olub: Bessera həmin qarşılaşmada 41-ci dəqiqədə əvəz olunub .

### *DÇ-2006 seçmə turnirində də çıxış edib*

Beserra DÇ-2006-nın seçmə turnirində də Kolumbiya yığmasının heyətinə cəlb olunub və 3 oyunda meydana çıxıb. Ümumiyyətlə, o, 2000-2003-cü illərdə millinin şərəfini qoruyub və keçirdiyi 15 matçda 1 qol vurub.

Narkobiznes və mafiya ilə birbaşa və ya dolayısı ilə əlaqəsi olan futbolçular tez-tez qurbana çevrilirlər. Belə getsə, Kolumbiyada futbolçu qalmayacaq.

***Hazırladı:***
***Hürrü Abdullayev***

Olimpiya dünyası

Baş redaktor:
M.Q.Fərzəliyev

Qəzet Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Hüquqi Şəxslərin Dövlət Qeydiyyatı üzrə Bakı Bölgə Şöbəsində qeydiyyatdan keçib. Qeydiyyat N R-168

AZƏRBAYCAN BEYNƏLXALQ BANKI
H/H AZ79IBAZ38090019449333849204
M/H 0137010002944
KOD 805250
VÖEN 1500306421

Təqdim olunmuş materiallar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.
Redaksiya reklam materiallarının məzmununa görə məsuliyyət daşımır.

Qiyməti 20 qəpikdir.
Qəzet “Olimpiya dünyası”nın kompüter mərkəzində yığılır, səhifələnir və “CBS” mətbəəsində (Şərifzadə küçəsi, 3. tel: 447-75-05(04)) çərşənbə axşamı və cümə günləri 6150 nüsxə ilə çap edilir.

DİQQƏT!
Qəzetimizin materiallarından istifadə edərkən “Olimpiya dünyası”na istinad etmək zəruridir.

*E-mail:*
olimpiya_dunyasi@mail.ru
*Ünvan:*
Bakı şəhəri,
2-ci sülh döngəsi, 2a.
*Tel.:* 564-90-49; 564-90-54;
564-74-19